## Hədiyyə

**(Hekayə)**

*Qarabağ müharibəsində əsir düşmüş*
*Azərbaycan qızlarının xatirəsinə*

Gülnaz atasının qucağına atıldı:

– Ata, mənim adımı sən qoymusan, yoxsa anam?

– Əlbəttə ki, mən. Bax sənin doğum haqqında şəhadətnamən də məndədir, görürsən? Sənin adını anan qoymuş olsaydı, doğum haqqında şəhadətnamən də onda olardı – deyə dodaqaltı qımışdı və Gülnazın oxuduğu məktəbə vermək üçün səhər evdən götürdüyü sənədi qızına uzatdı.

Gülnaz sanki, doğrudan da, onun adının atası tərəfindən qoyulduğunu sübut edən bir sənəd kimi, doğum şəhadətnaməsini möhkəm-möhkəm öpdü və: Ata, olar, bu məndə qalsın? – deyib heç cavab gözləmədən ətəyinin cibinə qoydu.

***

Artıq hava qaralırdı. Göyün üzünə qara buludlar yığışmış, uzaqda görünən başıqarlı Qızqala dağı tərəfdən soyuq rüzgar qalxmaqda idi. Rasim yorğun olsa da, sürətlə addımlamağa çalışır, Gülnaz isə heç nəyə məhəl qoymayaraq, doyunca yatıb yenicə qalxmış uşaq kimi atılıb-düşür, atasının ətrafında dövrə vururdu. Rasim Gülnaza baxaraq, qızına bu sevincli anları yaşatdığına görə özündən razı halda gülümsəyirdi. Havanın soyuduğunu görən Rasim: Qızım, hava yaman soyudu, deyəsən, yağış da yağacaq, bir az cəld ol, özümüzü kəndə yetirək, – deyə Gülnazın əlindən tutdu. Onlar sürətlə kəndə doğru irəliləməyə başladılar. Kəndin girəcəyindəki ağaclığa çathaçatda xeyli sayda adamın böyük təlaş içində ora-bura qaçdığını gördülər. Onlardan biri: Ermənilər kəndə giriblər, qabaqlarına çıxanı güllələyirlər, getməyin, – deyə qışqıraraq gözdən itdi. Bircə anda dünya Rasimin başına fırlandı. Kənd camaatı arasında ermənilərlə bağlı söz-söhbətlər xeyli vaxtdır gəzsə də, bunun, doğrudan da, nə vaxtsa baş verə biləcəyi heç kimin ağlına belə gəlmirdi. Vəziyyəti belə görən Rasim bir kəndə tərəf baxdı, bir də dönüb səkkizyaşlı qızı Gülnaza: – Mənim gözəl qızım, bax burdaca bu ağacın altında otur, heç bir yerə tərpənmə, mən bu saat qayıdıram, dedi və özündən asılı olmayaraq, qızından ömürlük ayrılırmış kimi, onu möhkəm-möhkəm bağrına basdı.

Təxminən bir saat idi ki, Rasim getmişdi. Atasının yolunu gözləyən qızcığaz soyuqdanmı, yoxsa qorxusundanmı oturduğu ağacın altındaca yuxuya getmişdi. Birdən

hündürdən danışıq səsləri gəldi. Gülnaz yuxudan ayıldı. Gözlərini açanda əllərində avtomat olan üç nəfər əsgərin düz ona tərəf gəldiyini gördü. O bilmədi ki, neyləsin – əsgərlərə yaxınlaşıb atasını soruşsun, yoxsa gizlənsin. Bu zaman əsgərlərdən biri, Gülnazın başa düşmədiyi dildə, yoldaşına nəsə dedi və onlar bir-biri ilə şit-şit zarafatlaşaraq gülməyə başladılar. Gülnaz bu adamların azərbaycanlı olmadığını başa düşdü və qorxusundan yanındakı ağacın arxasında gizləndi ki, əsgərlər onu görməsinlər. Bu vaxt ağacın arxasından gələn xışıltı səsi avtomatlılardan birinin diqqətini çəkdi. Ağaca yaxınlaşan avtomatlı Gülnazı görüb sevincək halda: Bunu bizə Allah yetirdi ki, – deyərək yoldaşlarına tərəf döndü və heç reaksiya gözləmədən kəmərini açmağa başladı. Onun fikrini anlayan o biri avtomatlı hirsli-hirsli dilləndi: Xorenin əmrini nə tez unutdun? Bilmirsən ki, əlimizə keçən türk qızlarını o şəxsən cəzalandırmaq istəyir?. Bunu deyib avtomatlılar Gülnazın qolundan sürüyə-sürüyə ordan uzaqlaşdılar. Gülnaz isə göz yaşları içində "ata, ata" deyə fəryad edirdi...

Kənddəki dostlarından vəziyyət haqqında ətraflı məlumat alan Rasim ağaclığa tərəf üz tutdu və birbaşa qızını qoyduğu ağacın yanına cumdu. Gülnazın burada olmadığını görən Rasimin sanki ürəyi dayandı. O, o yan - bu yana qaçaraq "Gülnaz, Gülnaz" deyə qışqırır, amma yalnız öz səsinin əks-sədasını eşidirdi.

***

Bu gün Gülnazın ad günü idi – 26 yaşı tamam olurdu. Rasim, ömür yoldaşı Ülkər və oğlu Rəşad süfrə başına toplaşmışdılar. Heç kim dillənib bir söz deyə bilmirdi. Bu ayrılıqdan ən çox əziyyət çəkən Rasim idi. O, Gülnazın əsir düşməsindən yalnız özünü günahkar sayırdı. Axı o gün, ermənilərin kəndə girdiyi xəbərini alanda Gülnazı ağaclıqda təkbaşına buraxmasaydı, bütün ailəsi 18 illik ayrılıq dərdinə düçar olmazdı. Ömür yoldaşı və uşaqları daima Rasimi sakitləşdirməyə çalışırdılar: Sənin heç bir günahın yoxdur, görünür, bu, Allahın işidir, yazı-qədərdir, – deyə ona ürək-dirək versələr də, bunların heç biri Rasimi sakitləşdirmək gücündə deyildi. Hər yanvar ayının 22-si Rasim üçün onun həyatının ən ağır günü idi.

Rasim sakitcə otağın küncündəki pianoya yaxınlaşdı, Gülnazın pianonun üstündən, sanki "ata, gəl məni xilas et" deyən yalvarış dolu baxışlarla boylanan şəklini əlinə aldı, ehmalca dodaqlarına yaxınlaşdırdı. Titrək səslə "Mənim əziz balam, hardasan?" – deyərək, illərdir olduğu kimi, yenə də göz yaşlarını saxlaya bilmədi.

***

Gülnaz işığı söndürdü: Bu gün çox yorulmuşam, – deyərək üzünü yana çevirdi. Lakin Arsen bu gecədən beləcə asanlıqla vaz keçmək niyyətində deyildi: – Əzizim, sənə bir

hədiyyəm var, üzünü mənə çevir. Gülnaz istəksiz halda, bir az da deyinə-deyinə ərinə tərəf döndü. Ərinin əlindəki kağız parçalarını görüb geri çevrilmək istəsə də, Arsenin kobud əlləri ona mane oldu: – Əzizim, bu, bizim evlənməyimizin 10 illiyi münasibətilə hazırladığım hədiyyəmdir, sən bu hədiyyəni çox sevəcəksən. Bunu deyib Arsen əlindəki Yerevan – Moskva təyyarə biletini və tünd-mavi pasportu Gülnaza uzatdı. Gülnaz bu pasportu həyatında ikinci dəfə idi ki, görürdü – ilk dəfə imza atıb rayon pasport şöbəsindən götürəndə və bir də indi. Odur ki, saxta bir maraqla pasportu nəzərdən keçirdikdən sonra Arsenin ona verdiyi bileti böyük sevgi ilə əvvəlcə sinəsinə basdı, sonra da dodaqlarına yaxınlaşdırıb öpdü. Onun bu hərəkəti Arsenə sanki dünyaları bağışladı və bu illər ərzində nadir hallarda arvadının gülər üzünü görən Arsen özündən razı halda Gülnazı möhkəm-möhkəm qucaqlayıb özünə sarı dartdı. Gülnaz nə qədər çalışsa da, ərinin kobud əllərindən qurtula bilmədi, illərlə olduğu kimi, yenə də ona tabe olmaq məcburiyyətində qaldı.

Gecəboyu Arsenin ona söylədiyi sözlərdən Gülnaz yalnız birini eşitdi – MOSKVA!

Gülnaz səhər lap tez oyandı. Əslində, o, sevincindən gecəni, demək olar ki, yatmamışdı, əri ilə gecəboyu uzun-uzadı söhbət etməyə xüsusi marağı olmadığından özünü yatmışlığa vurmuşdu. Arsen yuxudan duranda artıq mətbəxdə səliqə ilə açılmış süfrə – onun çox sevdiyi “Mikoyan” sosisi, soyutma yumurta, qızdırılmış qara çörək və qarışdırılmış şor-xama onu gözləyirdi. Arsen süfrəyə diqqətlə nəzər saldıqdan sonra arvadına tərəf döndü, heç bir şey deməsə də, onun ürəyindən keçənləri təbəssümündən oxumaq olurdu. Arsen ürəyində Gülnazın illərdir arzusunda olduğu və ondan dəfələrlə xahiş etdiyi Moskvaya getmək arzusunu bu qədər gec yerinə yetirdiyi üçün özünü qınayırdı. O, böyük iştahla yeməyini bitirdi və Gülnazı qucaqlayıb: Sabah səhər saat 9-da hava limanında olmalıyıq, hazırlaş, mən də işlərimi bitirib qayıdacam, – deyərək evdən çıxdı. Arsen gedəndən sonra Gülnaz mətbəxi yığışdırdı, yataq otağına keçib bir az dincəlmək istədi. Güzgünün qabağından keçərkən başını çevirib güzgüyə baxdı və ayaq saxladı. Gənc olmasına baxmayaraq, gözlərinin ətrafında yaranmış qırışlar diqqətini cəlb etdi. Gülnaz sanki bu qırışları ilk dəfə idi görürdü. İndiyə qədər özünə heç vaxt ayırmayan, xarici görünüşündən heç vaxt ciddi narahat olmayan Gülnaz bir saata qədər güzgünün qabağından ayrılmadı və hələ uşaqlığından çox sevdiyi “Qaragilə” mahnısını (Gülnaz bu mahnını atasından eşitmişdi) alçaqdan zümzümə edə-edə özünə xeyli bəzək-düzək verdi.

Axşam Arsen evə dönəndə yenə də onun sevdiyi yeməklərlə dolu süfrə diqqətini cəlb etdi. Gülnaz da həmişə olduğundan fərqli görünürdü. Onun üzündə xüsusi bir təbəssüm vardı. Gördüklərindən böyük həzz alan Arsen Gülnaza yaxınlaşaraq bu dəfə ürəyində yox, hündürdən, özü də xüsusi şövqlə dedi: – Mən sənin bu qədər gözəl olduğunu heç görməmişdim. Günah, yəqin ki, mənim bu kor olan gözlərimdədir. Ancaq sənin də günahın az deyil, bu gözəlliyi məndən gizlətmisən. Sənə söz verirəm ki, bundan sonra səni tez-tez gəzməyə aparacam. Bu sözlərdən bir az xoşhallanan, bir az da utanan kimi olan Gülnaz: Yaxşı, yaxşı, nə olub ki, mən elə həmişəki adamam”, – deyərək yataq otağına keçdi.

Gülnaz getdikdən sonra Arsen bir müddət mətbəxdə oturub fikrə getdi. O, Gülnazın belə gülər üzünü çox az-az görürdü. Əvvəllər bunun səbəbini Gülnazın həyata etinadsızlığı ilə bağlayır və onu dəyişdirmək üçün, nədənsə, heç bir xüsusi cəhd də etmirdi. İndi, bir gecənin içində arvadının belə dəyişdiyini gördükdən sonra bütün günahların özündə olduğunu qəbul etdi, indiyə qədər arvadını çox qapalı saxlamasının, sərbəstlik verməməsinin, tanışlardan, qohum-əqrəbadan təcrid etməsinin yanlış fikir olduğunu düşünməyə başladı və arvadına qarşı münasibətini dəyişdirmək üçün hər şey edəcəyinə ürəyində söz verdi.

Gülnaz sabahkı səfər üçün hazırlıq görməyə başladı. Özünün və Arsenin lazım olan pal-paltarını səliqəli şəkildə çantaya qoydu, pasportunu əlinə aldı, açıb içindəki şəklinə baxdı. Pasportu özünün də başa düşmədiyi qarışıq hislərlə nəzərdən keçirib onu da çantasına qoydu. Gülnaz özünün şəxsi əşyalarını da götürdükdən sonra paltar şkafına yaxınlaşdı, şkafın aşağı sağ küncündəki siyirməsini açdı, oradakı bəzi qarma-qarışıq əş-yaların arasından nə isə götürdü. Özündən başqa otaqda kimsənin olmamasına baxmayaraq, Gülnaz qorxa-qorxa, çox ehtiyatla, elə bil kimsədən gizləyirmiş kimi, götürdüyü o şeyi köksünə sıxaraq öpdü və şəxsi əşyaları olan kiçik əl çantasına qoydu. Gülnaz bütün hazırlıq işlərini bitirib uşaq otağına keçdi və qızının çarpayısına yaxınlaşdı, oyanmasın deyə ehmalca beş yaşlı Nərgizə tərəf əyildi (əslində, qızının adı Narine idi, Gülnaz isə həmişə ürəyində ona Nərgiz deyə müraciət edirdi). Nərgiz şirin-şirin yatmışdı. Yenicə yemək yediyi hiss edilirdi, dodaqlarının kənarından axan südün izi hələ silin-məmişdi. Nərgizin mələk üzündə xüsusi bir təbəssüm vardı, o sanki yuxusunda kimə isə qımışırdı. Gülnaz çox qarışıq fikirlər içində idi. Qəlbinin dedikləri və real analıq duyğuları arasında çaşbaş qalmışdı. Elə bu an qapı açıldı, Arsen içəri girdi. Gülnaz Arsen görməsin deyə göz yaşlarını silib geriyə dönsə də, Arsen onun ağladığnı hiss etdi: Niyə ağlayırsan, niyə belə kədərlisən? Biz ki cəmi bir neçə günlüyə gedirik. Bir də ki anam qızımıza bizdən də yaxşı baxacaq, sən bu qədər narahat olma, hər şey yaxşı olacaq, – deyə Gülnazı sa-kitləşdirməyə çalışdı. Gülnaz: Eh, Arsen bircə bilsəydin, bir ana üçün bir gün belə öz körpəsindən ayrı qalmaq nə deməkdir, – deyib yenə də göz yaşlarına hakim ola bilmədi. O bir də yatağa tərəf əyildi, Nərgizin, bir də görməyəcək kimi, dönə-dönə yanaqlarından öpdü və ürəyində: Mənim əziz balam, bilmirəm, məni bağışlaya biləcəksənmi? – deyərək dərindən ah çəkdi.

***

Hava limanında diktorun səsi eşidildi: Yerevandan Mockvaya uçan KL-3193 saylı reysə 4-cü qapıdan minik başlayır. Gülnazın sevincdən, az qala, ürəyi dayanacaqdı. İlahi, bu yuxudurmu, yoxsa həqiqətdirmi, o doğrudanmı Moskvaya gedir?! Nə qədər ki təyyarə

havaya qalxmamışdı, Gülnaz buna inana bilmirdi. Birdən həyəcandan gözləri qaraldı, başı fırlandı. O, nə qədər özünü ələ almaq istəsə də, bacarmadı, ayaqları büdrədi, az qaldı ki, yıxılsın. Gülnaz birtəhər özünü saxlasa da, Arsen hər şeyi hiss etdi. O, təlaş içində: Nə olub, sənə nə oldu? – deyə soruşdu və cavab gözləmədən hava limanının tibbi yardım məntəqəsinə sarı qaçdı. Çox keçmədi ki, həkim gəldi, Gülnazın təzyiqini yoxladıqdan sonra üzünü Arsenə tərəf çevirdi: Təzyiqi çox yüksəkdir, bu vəziyyətdə uçmaq məsləhət deyil. Bu sözlər Gülnazı ildırım kimi vurdu. Qara gözlərini ərinə zilləyib durdu, gözlərindən iki damla yaş süzüldü. İlahi, doğrudanmı onun illərlə ürəyində bəslədiyi arzusu heçə dönəcəkdi?! Arsenin: Əzizim, hər şey keçib gedər, başqa bir vaxt səni mütləq Moskvaya aparacam, mənə inan, indi isə həkimin sözlərinə əməl edək, evimizə dönək, – sözləri onun üçün bir ölüm fərmanı idi. Elə bil dünya Gülnazın başına fırlandı, özünü ələ almağa çalışdı: Yox, yox, sən nə danışırsan, mən lap yaxşıyam, – deyə cəld, heç nə olmamış kimi, ayağa qalxdı: Arsen, onillik həyatımızda səndən heç vaxt bir şey istəməmişəm. İndi yalvarıram sənə, bu səfərimizi təxirə salma, gedək Moskvaya. Məndən narahat olma, mən özümü yaxşı hiss edirəm, bir az həyəcanlandım, artıq hər şey keçdi. Moskvada, narın-narın yağan quşbaşı qar altında səninlə əl-ələ gəzmək, sənin sevgi dolu sözlərini eşitmək, Qızıl meydanda şəkil çəkdirmək mənim ən böyük arzumdur.

Arvadının yalvarış dolu baxışlarına dözməyib, nəvazişli sözlərindən bir qədər qürurlanan Arsen başı ilə razılığını bildirdi. Gülnaz: Sənin bu yaxşılığını heç vaxt unutmayacam, – deyərək yanaqları qızarmış halda başını Arsenin sinəsinə əydi.

Təyyarəyə minik başladı. Gülnaz ərinin qoluna girib gözlərini biletləri yoxlayan qıza zilləmişdi, nə qədər ki təyyarəyə minməmişdi, heç cür rahatlaşa bilmirdi. Qız biletləri cıraraq minik hissəsini tez-tez sərnişinlərə qaytarır, bu yolla sanki bir qədər gecikmiş reysə miniyi sürətləndirmək istəyirdi. Nəhayət, növbə Gülnaza çatdı, bilet yoxlayan qız, nədənsə, biletə diqqətlə nəzər saldıqdan sonra Gülnazın üzünə baxdı. Bu baxışlar o qədər diqqətli idi ki, Gülnaz sanki sənədlərində bir problemin olduğunun bilirmiş kimi, doğrudan da narahat olmağa başladı. Elə bu zaman qızın "buyurun, keçin" sözləri Gülnazı elə bil ki yuxudan oyatdı. Onlar cəld addımlarla təyyarəyə tərəf getdilər.

***

Gülnazgil Moskvada Arsenin əmisi oğlu Arturun evində qalırdılar. Artur onları ən əziz qonaqları kimi qarşılamışdı. Arturun arvadı Anuş, adının mənasına uyğun olaraq, çox şirindil və açıqqəlbli bir qadın idi. O, Gülnazı ilk dəfə Yerevanda, onların toylarında görmüş və bir neçə gün sonra ailəsi ilə Moskvaya köçdüklərindən bir daha görüşməmişdilər. Gülnazın həyat hekayətini isə sonradan əri Arturdan eşitmişdi və onu öz doğması kimi sevmişdi. Yaşca Gülnazdan xeyli böyük olsa da, rəftarında bunu qətiyyən sezdirmir, Gülnazın onu özünün yaxın rəfiqəsi kimi qəbul etməsi üçün hər şeyi etməyə

çalışırdı. Gülnaz da bunu hiss edir və onun son günlərdəki xoş əhvali-ruhiyyəsi burada – Moskvada da davam edirdi. Onlar artıq üç gün idi ki, Moskvadaydılar. Planlarına görə, daha iki həftə burada qalacaqdılar. Ona görə də, ilk günlərdə heç bir yerə getmir, vaxtlarını evdə birlikdə keçirirdilər.

Bu gün ilk dəfə idi ki, Gülnaz Anuşla birlikdə şəhərə gəzməyə çıxmışdı. Yanvarın son günləri olmasına baxmayaraq, Moskvada hava heç vaxt olmadığı qədər xoş idi. Narın-narın yağan qar sakit, küləksiz havaya ayrı bir gözəllik verirdi. Lakin Gülnaz bir qədər həyəcanlı görünürdü. Bu, Anuşun da gözündən yayınmamışdı: Bu gün bir az həyəcanlı görünürsən, deyəsən, Moskvanın gözəlliklərini görmək üçün səbirsizlənirsən, hə? Anuşun sorduğu suala elə özünün də cavab verməsi Gülnazın işini bir qədər yüngülləşdirdi və o, şux səslə dedi: Bəs necə, zarafatdır, ağzında Moskva deyirsən. Sən burada yaşadığın üçün bu sənə bir az qəribə görünə bilər, amma mən bu günü düz on  ildir gözləyirdim.

Onlar şəhərdə doyunca dolaşdıqdan sonra, Anuşun təklifi ilə, Moskva çayı sahilində yerləşən məşhur alış-veriş mərkəzinə getdilər. Əvvəlcə nəfəslərini dərib bir qədər dincəlmək üçün kiçik və çox rahat görünən bir kafeyə girdilər. Şirin söhbətə başları qarışdığından Anuş vaxtın necə keçdiyini hiss etmir, Gülnaz isə, Anuşa sezdirmədən, hərdənbir saatına nəzər salırdı. Gülnaz: İndi də bir az alış-veriş etsək, pis olmaz, – deyə üzünü Anuşa tutdu. Anuş elə Gülnazdan bu təklifi gözləyirmiş kimi cəld ayağa qalxdı, qarsonu çağırıb hesabı ödədi və onlar alış-veriş mərkəzinin ikinci mərtəbəsinə qalxdılar. Bir az alış-veriş etdikdən sonra Gülnaz Anuşdan nəsə soruşdu və Anuş sağ əli ilə mərtəbənin o başındakı tualet tərəfi göstərərək: Mən də səninlə gəlimmi?, – deyə soruşdu. Gülnaz: Yox, yox, narahat olma, sən alış-verişini et, mən bu saat qayıdıram, – deyə inamla dilləndi. Anuş mağazaya girdi, Gülnaz isə iti addımlarla mərtəbənin o başına doğru addımladı. O, yolda saymazyana dönüb geriyə baxdı və Anuşun mağazaya girdiyindən tam əmin olduqdan sonra addımlarını bir qədər də sürətləndirdi. Pilləkənlərdən ildırım sürətiylə enən Gülnaz cəld bayıra çıxdı, sağa-sola baxdı. Bir qədər aralıda taksi dayanmışdı. Gülnaz əli ilə taksiyə işarə elədi. Taksi dərhal yerindən tərpənsə də, Gülnazın ürəyi dözmədi, taksiyə tərəf qaçmağa başladı. Cəld maşına oturub əlindəki kağız parçasını sürücüyə uzadaraq: Məni təcili bu ünvana çatdırın, – dedi. Sürücü bir qədər maraq və təəccüblə təlaş içində olan müştərisini süzdü: Narahat olmayın, vaxtında çatarsınız.

Maşın yenicə yerindən tərpənmişdi ki, işıqforda durdu. Gülnazın sanki ürəyi yerindən çıxacaqdı. O, tələsik çantasından 50 dollar pul çıxarıb sürücüyə uzatdı: Xahiş edirəm, sürətlə sürün, mən təcili orada olmalıyam. Pulu görən taksi sürücüsü hər şeyi anladı. Yaşıl işıq yanmadan tərpəndi.

Taksi üçmərtəbəli binanın qarşısında dayandı. Buyurun, bu da sizin ünvanınız, – deyə sürücü əli ilə sağdakı binanı göstərdi. Taksi sürücüsü maşını kifayət qədər sürətlə sürsə də, Gülnaz üçün elə bil uzun bir müddət keçmişdi. Tələsik halda qarşıdakı binaya tərəf qaçdı, icazə almadan içəri girmək istəsə də, qapıda dayanan polis qarşısını kəsdi: Vətəndaş,

görmürsünüz, nahar vaxtıdır, bir saat sonra gəlin. Gülnaz üçün indi hər saniyənin mənası vardı, nəinki bir saatın. Yer-göy Gülnazın başına fırlandı, həyəcanından tarazılığını itirib yerə yıxıldı. Çaşbaş qalan polis işçiləri nə edəcəklərini bilmədilər, nəzarət məntəqəsinin müdirinə məlumat verdilər. Nəzarət məntəqəsinin müdiri Gülnazı içəri aldı, həkim çağırtdı. Polis işçilərindən biri tibb bacısının köməyi ilə Gülnazı çarpayıya uzatdı. Həkim Gülnazın təzyiqini yoxladı: Təzyiqi çox yüksəkdir, belə yüksək təzyiqə necə dözür? – deyərək ona bir dərman verdi. Sonra o ətrafdakılara: Bir az dincəlməyə ehtiyacı var, qoy burada uzanıb dincəlsin, biz isə rəhbərliyə xəbər verək, – deyib otaqdan çıxdı. Tibb bacısı da onunla birlikdə çıxmaq istədi, lakin həkim: Sən hər ehtimala qarşı onun yanında qal, on dəqiqədən sonra bir dəfə də təzyiqini yoxla və hərarətini ölç, – deyə xəstəni göstərdi. Tibb bacısı geri qayıtdı. Gülnaz yuxuya getmişdi. Bu zaman polis işçilərindən biri əlində bir əl çantası içəri girdi: Bu, qadının çantasıdır, yıxılanda düşmüşdü, – deyib çantanı tibb bacısına uzatdı. Tibb bacısının gözləri açıq çantanın içindəki tünd-mavi rəngli pasporta sataşdı. Pasportu əlinə aldı. Ermənistan pasportunu görən tibb bacısı özünü itirdi, nə deyəcəyini bimədi, çaşbaş halda ətrafdakıların üzünə baxdı: Bu erməninin burada nə işi var? – deyə bir nəfər üz-gözünü turşutdu. Pasport dərhal əldən-ələ keçməyə başladı. Bu zaman həkimin göstərişilə Gülnazın hərarətini ölçmək üçün onun sinəsini bir qədər açmağa çalışan tibb bacısının əlinə nə isə toxundu. Tibb bacısı təəccübdən yerində donub qaldı. Onun əlinə toxunan Gülnazın sinəsində gizlətdiyi Azərbaycan dilində yazılmış doğum haqqında şəhadətnamə idi. O, şəhadətnaməni götürüb hündürdən oxudu: Musayeva Gülnaz Rasim qızı. Doğulduğu yer: Xocalı. Doğulduğu tarix: 22 yanvar 1984-cü il. Hamı bir-birinin üzünə baxdi, nə baş verdiyini anlamağa çalışırdılar.

Çox keçmədi, qalstuklu, səliqə ilə geyinmiş bir nəfər yaxınlaşaraq nə baş verdiyini soruşdu: "Cənab səfir, bu qadın özbaşına səfirliyə daxil olmağa çalışırdı, birdən huşunu itirib yıxıldı. Biz də onu içəri almağa məcbur olduq. Pasportu erməni pasportudur, amma üzərində bir azərbaycanlı uşağın doğum şəhadətnaməsi var", – deyən nəzarət məntəqəsinin müdiri sənədləri səfirə uzatdı. Səfir onun üçün heç bir maraq kəsb etməyən pasporta ötəri nəzər saldıqdan sonra doğum haqqında şəhadətnaməni alıb baxdı, diqqətlə oxudu, yuxuya getmiş Gülnaza tərəf əyilərək bir ata nəvazişi ilə başını sığalladı. Çarpayının kənarında oturaraq Gülnazın əllərini əlinə aldı. Gizlətməyə çalışsa da, gözlərindən axan iki damla yaş yanağı aşağı süzüldü.

Gülnaz yuxusunda Xocalını görürdü...

*Aprel 2020-ci il*

*Buzovna*

Mənbə: "Kredo" qəzeti, № 41 (1021), 13 noyabr 2020-ci il, s.8-9